İPƏK YOLU, No.3, 2023, səh.108-114

# POEZİYADA ADİLİYİN BƏDİİ-FƏLSƏFİ TƏRƏNNÜMÜ (Rəsul Rza ədəbi məktəbi əsasında)

**Dəyanət Cümənov**

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
e-mail: cumanov73@mail.ru

**Xülasə**. Məqalədə göstərilir ki, Ə. Kərim, F. Qoca, F. Sadıq, İ. İsmayılzadə, Ə. Salahzadə, V. Səmədoğlu, Ç. Əlioğlu və başqalarının təmsil etdiyi milli sərbəst şeir məktəbində yeni insan konsepsiyasının aparıcı xətti adiliyin çoxqatlı və görünməz tərəflərinin, "kiçik adam"ın poetik-fəlsəfi təsvir-tərənnümüdür. Bu istiqamətin C. Məmmədquluzadə və mollanəsrəddinçilik təlimindən qaynaqlanması vurğulanmış, şairlərin yaradıcılığından gətirilən poetik örnəklərin təhlili əsasında Rəsul Rza ədəbi məktəbinin insan konsepsiyasının elmi-nəzəri izahı verilmişdir.

**Açar sözlər**: Rəsul Rza ədəbi məktəbi, insan konsepsiyası, "kiçik adam", adiliyin bədii-fəlsəfi tərənnümü, simvollaşmış ədəbi qəhrəmanlar, mollanəsrəddinçilik təlimi.

**ARTISTIC LITERARY GLORIFICATION OF SIMPLICITY IN POETRY (Based on Rasul Rza literary school)**

**Dayanat Jumanov**
*Sumgait State University, Sumgait, Azerbaijan*

**Abstract**. The article shows that the the leading line of the new human concept in the national school of free poetry represented A. Karim, F. Goca, F. Sadig, I. Ismailzadeh, A. Salahzadeh, V. Samadoglu, Ch., Alioglu and others is the poetic-philosophical description-singing of the multi-layered and invisible sides of ordinaryness and "little man". It is emphasized that this direction originates from the teaching of J. Mammadguluzade and Mollanasreddinism and based on the analysis of poetic examples from the works of poets, a scientific-theoretical explanation of the human concept of the Rasul Reza literary school is given.
**Keywords**: Rasul Reza literary school, concept of man, "little man", artistic literary glorification of simplicity, symbolized literary heroes, ideas of Mollanasreddinism.

**ХУДОЖЕСТВЕННО-ЛИТЕРАТУРНОЕ ВОСРЕВАНИЕ ПРОСТОТЫ В ПОЭЗИИ (На материале литературной школы Расула Рза)**

**Даянат Джуманов**
*Сумгаитский государственный университет, Сумгаит, Азербайджан*

**Резюме.** В статье показано, что ведущую линию новой человеческой концепции в национальной школе свободной поэзии представленной А. Керим, Ф. Годжа, Ф. Садыг, И. Исмаилзаде, А. Салахзаде, В. Самадоглу, Ч., Алиоглу и другие-составляет поэтико-философское описание-воспевание многослойных и невидимых сторон обыденности и «маленького человека». Подчеркивается, что это направление берет свое начало из учения Дж. Мамедгулузаде и молланасреддинизма. На основе анализа поэтических примеров из произведений поэтов дается научно-теоретическое объяснение человеческой концепции литературной школы Расула Рзы.
**Ключевые слова:** литературная школа Расула Рзы, концепция человека, «маленький человек», художественно-литературное восревание простоты, символизированные литературные герои, идеи молланасреддинизма.

## 1. Giriş

Rəsul Rza modernist-eksperimental ədəbi məktəbinin insan konsepsiyasında adiliyin çoxqatlı və görünməz tərəflərinin poetik təsvir-tərənnümü aparıcıdır, əsas ana xətdir. C. Məmmədquluzadə və mollanəsrəddinçilik təlimindən qaynaqlanan "kiçik adam" 1950-ci illərin

ortalarında R. Rza poeziyasında görünməyə başlamış və bir növ, ona dövrün ictimai-sosial mənzərəsi planında qayıdış baş tutmuşdu. Sosrealizm boyalarından tamamilə uzaq bu "kiçik adam" (nəsrdə Ç. Aytmatov, İ. Hüseynov, Anar, Elçin və b.) insan obrazının ölçü meyarına çevrilmiş, "ikinci növ insan"lara yeni poetik həyat vermişdir. Taleyi sadə həqiqətlərə bürünmüş və "kiçik" görünən bu insan obrazları adi hadisələr fonunda bədii mətnin mərkəzinə gətirilmiş, onun çoxçalarlı bədii-fəlsəfi dərki güclənmiş, "axtarış və kəşflər" poeziyasına, eyni zamanda poeziyanın novatorluq keyfiyyətinə çevrilmişdir.

## 2. Rəsul Rza poeziyasında adiliyin bədii-fəlsəfi tərənnümü, rəmzləşmiş ədəbi qəhrəmanlara müraciət

Qətiyyətlə demək olar ki, R.Rza poeziyasında "kiçik adam"ın fərdi dünyasının təsvir, təbliğ və tərənnümü ədəbi prosesdə sosrealist boyalı insan obrazlarına qarşı müxalifət mövqeyi idi. "İnsanı tərənnüm edən poeziya" (1970) məqaləsində "Bir gün də insan ömrüdür" poemasını Rəsul Rza humanizminin proqram əsəri sayan akademik M. Arif diqqəti bu cəhətə yönəldərək yazır ki, *"Şair qəsdən qəhrəmanının adını da bizə demir, ... qəhrəmanını qətiyyən ideallaşdırmır, onu romantika qanadlarında gəzdirmir, onu ən adi, gündəlik iş-məişət şəraitində təsvir edir, amma onun bu ilahi sadəliyində, adiliyində nə qədər böyüklük, ülvilik, insaniyyət vardır"* [1, s. 249]. "Bir gün də insan ömrüdür" (1961) poemasının lirik qəhrəmanı - raykom katibi ona vurulmuş iki zəng-söhbət haqqında düşünür: birinci adam ancaq dövlət planı ilə (*Elə yunu soruşdu, gübrəni soruşdu. /Sorğu-sualı ət oldu,/süd oldu, yumurta oldu./Bir də mal-qara.../Asıldı dəstək. /Görünür vaxt çatmadı insanlara*), ikinci adam isə insanla (*Adamlar necədir? /Xəstələnən yoxdur ki? /Plan dövlət qanunudur, /bilirsən özün. /Ancaq adamsız nə plan, nə dolum! /Adamlarda olsun gözün*) maraqlanmış, "nə böyük nemətdir insan məhəbbəti" ədəbi tezisini önə çəkmişdir.

R. Rza poeziyasında bir çox hallarda rəmzləşmiş tarixi ədəbi qəhrəmanlara müraciət adamlarla bol olan cəmiyyətdə insan tənhalığından irəli gəlirdi. "Qəribə arzular"da (1959) şair Şərqin düşüncə simvollarını - Kefli İsgəndərlə Bəhlul Danəndəni düşünmüş, onları bir cərgəyə qoymuş, "Kefli İsgəndər"də (1960) diri ölülərin dərdini çəkdiyi üçün kefli olan İsgəndər "yaman olur anlamaq dərdi"nə görə qınanılmamış, "İsgəndər, Çatski, Çayld Harold"da (1960) sərlövhədəki obrazlar şairə qonaq gəlmiş, İsgəndər Nazlıya insanın "anlamaq dərdi"ini göstərmişdir: *İsgəndər dedi: /Mənim Nazlı bacım, /İstəyirsən, sındır, at!/Amma şüşələri sındırmaqla/sağalmaz insan dərdi* [2, s. 79]. Bu tip şeirlərin ideyası birdir: İnsan olmaq, insan kimi yaşamaq üçün anlamaq və anlaşmaq vacibdir.

"Mirzə Cəlil nisgilləri" (1967) silsiləsinin "Ölülər"ində əlində modern elektrik fənəri olan İsgəndər R. Rzanın yuxusuna girərək Şeyx Nəsrullah, Hacı Həsən, Mir Bağır ağanın timsalında ona müasirlərini xatırladaraq, "ölülər ölüb qurtarmayıb hələ" tezisini ortaya qoymuş, "Nazlılar"da şair "ölü Hacı Həsənin qızı" və "diri Kefli İsgəndərin bacısı" körpə Nazlının, Sabirin bədbəxt Tükəzbanın timsalında ölülər dünyasının qurbanlar olmuş qadınların taleyinə yanmış, "Zeynəbin qisası"nda Mirzə Cəlilin Xudayardan qisas almasına sevinmişdi.

"Kamança"da "İnsanda insan oyadın!" deyən şairin insansevərlik pafosu və narahatlığı *"Kamança çalın! Kim sındırsa kamançanı halaldır qanı!"* maksimal ədəbi həddə qədər yüksəlmişdir.

Arif Abdullazadə "formaca "Rənglər" silsiləsi ilə səsləşən" (B. Əhmədov) "Bəxtimizin kitabı" silsiləsində (1981-85) Mirzə Cəlil obrazlarına müraciət etmiş və "kiçik adam"ların taleyinə bir daha aydınlıq gətirmiş, onları müdafiə etməklə yeni poetik həyat qazandırmışdır. Şair "Novruzəli"də Novruzəliyə vurulan nadan, cahil damğaları ilə barışmamış, əksinə onun son dərəcə sədaqətli olmasını *(Ürəyində, beynində, /son sözünə sona qədər/sədaqəti vardısa, /əmanətə xəyanəti bacarmırdısa, /onda bəs nadan niyə?*) ön plana çıxarmış, "Usta Zeynal"da hekayənin qəhrəmanını biganə, lqeyd, müftə çörək yeyən adlandıranlara qarşı çıxmış, ömrü boyu haram tikə yeməyən, yalan danışmayan, ən əsası da Akopun divarını Allahdan icazəsiz hörəməyən Usta Zeynala haqq qazandırmışdır: *Bircə sözlə, kim nə deyir-desin, /ev yıxan olmamışdı/bu Quranlı, bu namazlı/çoxlu-azlı dünyasında/usta Zeynal. /...Amma yazıq neyləsin ki,/bircə divarını da/hörə bilmədi Akopun /Allahından icazəsiz, arxayın, əmin* [3, s.195].

Prof. A. Axundov "Dərin mənalar poeziyası"nda bu tip şeirləri poetik kəşflər adlandırmışdır: *"Sən demə Qurbanəli bəyi pis qoxulu axura fırladan onun "sadiq ömür həmdəmi olan lovğalığı"nın doğurduğu yalanda, Usta Zeynalın beşcə günlük bu dünyalıq ömrünü bir az şübhə, bir az inam, bir az işıq, bir az zülmət arasında yaşamasında... pünhan poeziya anları var və onları tapıb meydana çıxarmaq özü də böyük bir poeziyadır"* [4, s. 5].

Fikrət Sadıq "Mirzə Cəlilə" şeirində bu məzmun xəttinə işarə edərək göstərirdi ki, mollanəsrəddinçi ustad digərləri kimi eşq kitabı deyil, "Anamın kitabı"nı yazaraq dərdin, əzabın rəngini göstərdi, "Lal"ı dilləndirərək, "Ölülər"i düşündürərək acı-acı güldürüb-ağlatdı. Beləliklə: *Kiminin səbri bir kasalıqdı, /Kimininki bir çimdik. /Onunku bir dənizdi; o da daşdı. /Bir nəslin düşüncəsi/Bu daşqınında yuyundu, aydınlaşdı* [5, s. 22].

Qətiyyətlə demək olar ki, R. Rzanın insanlıq və humanizm konsepsiyasının ən parlaq örnəyi, "bəşər tarixinin, onun təzadlı və tragik inkişafının monumental abidəsi" (V.Yusifli) statusunu alan "İnsan şəkli" (1964) mətnində insan konsepti özünün mükəmməl ifadəsini tapmışdır. Bu mətn şairin öz dövründən bütün zamanlara və insanlara, insanlığın tarixinə poetik-fəlsəfi baxışı idi. Şair geniş və hündür olmayan sərgi salonunda bütün zamanlardan, məkanlardan görünə bilən adi bir insan şəkli (*Mənə bir sərgi salonu verin! /Orda bir insan şəkli asacağam-/adi bir insan*) asmaq istəyir. Bu şəkil-insanların (Nəsimi, Cordano Bruno, Qastello, Lorka və s.) içində "ömrü-günü yollara tökülü" Məmmədhəsən kişi də mövqe tutmaqla, fikrimizcə, "kiçik adam"ları assosiasiya etmiş və şairin onları bir sırada görmək istəyindən irəli gəlmişdir. Qeyd edək ki, hələ 1959-cu ildə siyasi ideoloji sistemin antiinsan mahiyyətini göstərən "sovet rejimi əleyhinə yazılmış sarkazm" (İ. Həbibbəyli) olan "Sarı dana və balaca qız"da Gülxaranın qaragöz kiçik qızının timsalında "balaca adam"ın taleyi və faciəsi görünmüşdü. Bu balaca qız kolxoz danasına olan qayğını özünə qarşı görə bilmir, baxımsızlıqdan ölür. Həqiqətdə bu balaca qızı öldürən müharibə, xəstəlik yox, insana qarşı olan

laqeydlik, diqqətsizlik, sayğısızlıq olmuşdur. Şeirdə balaca qızın qəbrinin II Dünya müharibəsində həlak olmuş insanların qəbirləri arasında təsviri insana qarşı biganəliyin müharibə qədər, bəlkə də, ondan da dəhşətli olmasına işarə idi. Prof. V.Yusifli belə qənaətə gəlmişdir ki, şairin məhz "Dana və balaca qız" şeiri poeziyanın diqqətini insana yönəltdi, bu şeirlə Azərbaycan poeziyasında insanın insan kimi dərki, yaşadığı kimi təsvir etmək meyli artmağa başladı. "İnsan yüksək bir mənəvi sərvət kimi tərənnüm olunmalıdır" tezisini poeziya qarşısında bir tələb kimi qoydu [6, s. 139]

Akademik M. Arif R. Rza poeziyasında adiliyin poetik əlvan rənglərlə – səs və sözlərlə hikmətamiz ifadəsini duyan ilk tənqidçi idi. "Qəlbimdə bahar"/"Vesna vo mne" kitabında toplanmış şeirlər, o cümlədən "Pəncərəmə düşən işıq", "Bir gün də insan ömrüdür" haqqında fikir söyləyən ədəbiyyatşünas-alim məhz "üzümüzə gülən adi gündəlik həyat löhvələri üçün, fikrimizi, xəyalımızı hərəkətə gətirib oxşadığı üçün" şairə təşəkkür edirdi: *"Həssas şairi həyatda hər şey: pəncərədən düşən işıq, röyal çalan kiçik qız, divar daşı, qədim əlyazması, asfaltı qaldıran zərif bir nərgiz çiçəyi, hədər yerə yağan yağış, vəhşicəsinə ağacdan qoparılan yaşıl budaq, sadə bir böcək, əriyən qardan qalxan bahar qoxusu... hər şey düşündürür, xəyalında müxtəlif fikirlər oyandırır. Sən də düşünürsən... Düşünürsən ki, bəs necə olmuşdur ki, bu vaxtadək mən bu mənanı duymamışam, bu gözəlliyi görməmişəm..."* [7, s. 571].

Zahirən poetik detal kimi nəzərə çarpmayan adi əşya və hadisələrdə, adi mövzularda, insan ömrünü bir günü, bir saatı, bir anı fonunda böyük həyat həqiqətlərini görə bilmək, təsvir-tərənnüm etmək və oxuculara duydurmaqla R. Rza və bu ədəbi məktəbin cığırdaşları adiliyin və sadəliyin bənzərsiz estetik gözəlliyinin üfüqlərini aşmışlar. Düşünürük ki, R. Rzanın proqram şeirlərindən sayılan "Pəncərəmə düşən işıq" (1960) qafiyəsiz sərbəst şeirin ədəbi gəncliyə, eyni zamanda Azərbaycan poeziyasına gözəl örnək töhfəsi olmuşdur. Mətndə qaranlıq otaqda tənha qalmış lirik qəhrəmanın xəyalında qəfildən pəncərəyə düşən, yanıb-sönən işıqdan – kiçik və adi bir hadisədən sonra acı-xoş taleli insan obrazları (*Bəlkə, /bir avtomobil fanarının/işığıydı bu. /Avtomobildə adamlar vardı, /bəlkə. /Xoşbəxt adamlar, /kədərli adamlar, /ümidli, həsrətli adamlar*), təbiət hadisələri (*Bəlkə, ildırım düşdü./... yüzillik bir çinarı yarı böldü. /Bəlkə, bu çinarda/hələ palçığı qurumamış yuvada/bir ana qaranquş öldü*) doğulmuşdur. Adi işıq metaforası şairi filosofcasına düşündürmüş, nə olur-olsun, "Ancaq atom işığından alışmasın dünya" deyərək bütövlükdə insan amilini daha önə çəkmişdir. Prof. K. Əliyev "Rəsul Rzanın yaradıcılıq yolu" (2001) məqaləsində diqqəti şairin bədii təfəkkürünün insanı heyrətə salan, insanı böyüdən və dünyanı adiləşdirən unikal cəhətlərinə diqqəti yönəldərək yazmışdır ki, bu təfəkkürdən doğan poeziya insanın böyüklüyünü, möhtəşəmliyini göstərməyə hesablanmış və həm də yol açmışdır [8, s. 209]. Alimin fikrincə, insanla bağlı böyük həqiqətlər şairin qəlpə, damcı, qarışqa, qayıq, körpə kimi kiçik obrazları ilə mükəmməl ifadəsini tapmışdır.

## 3. Ədəbi məktəb nümayəndələrinin yaradıcılığında sadə və adi həyat lövhələrinin poetik-fəlsəfi tərənnümü

Qeyd edək ki, adi və sadə görünənlər əşya və hadisələr vasitəsilə insan və onunla bağlı həyat lövhələrinin analitik-fəlsəfi poetik şərhi Rəsul Rza ədəbi məktəbi üçün xarakterikdir. 1960-80-ci illər mərhələsində Ə. Kərim ("Metronun yaylı qapıları", "Daş", "Zaksda", "Əllər", "Babəkin qolları", "Xətlər variasiyaları", "Coğrafiya müəlliminin şəhadət barmağı", "Günəbaxan" və s.), İ. İsmayılzadə ("Çay daşları", "Oyuncaqsız uşaqlığım", "Mən bir termos şüşəsiyəm", "Kürsülər", "1941", "Güllələr demədi", "Əlsiz qalan yetim ciblər", "Böyüdülmüş şəkillər" və s.), Ə. Salahzadə ("Boy", "Voleybol", "Fəvvarə" , "Ovcum", "Ağ bir zanbaq kimi açıldı səhər", "Yol", "Kibrit çöpləri", "Körpü", "Təsbeh", "Məşəl", "Saman çöpü" və s.), F. Qoca ("Ağrı", "Səkilər", "Vals", "Risk", "Şahmat", "Qatar", "Kəndirbazlar", "Qoca fil" və s.), F. Sadıq ("Bir qarış ot", "Bir təyyarə uçur", "Daşlar", "Qar yağır", "Həndəsəli şeirlər", "Ağ cığır", "Növbə daşları" və s.), "Bilirsiz qantel nədir?", "Fırlanır yallıda", "O əyri xətt", "Bağ yolunda tənha işıq yanır" (V. Səmədoğlu), "Uçan işıq", "Bürkü", "Avtobusa minəndə, avtobusdan düşəndə..." (Ç. Əlioğlu) və başqalarının poeziyasında bu cəhət qabaq müşahidə olumuşdur.

Ə. Kərim "Metronun yaylı qapıları" (1966) şeirində adi bir əşya-detaldan - metronun girişində qoyulmuş açılıb-yığılan yaylı qapıların üzərindən, onların asta, yaxud sürətlə örtülməsindən (*Adam var bu qapıları açar,/Bir az/saxlayar, deyər:/Birdən arxadan gələnə dəyər/...Eləsi də olur ki...*) insan təbiətini müəyyənləşdirmişdir. "Maska"da müxtəlif heyvan üzlü maskaların paylanıldığı karnavalda bir ayüzlüyə eybəcər meymun maskası, birinə özünə uyğun tülkü maskası düşmüş, "Amma bəziləri naxələf çıxır, /Qayıdır evinə üzündə maska" eyhamı vurulmuş, adi maska vasitəsilə insan və onun taleyi məsələsi qabardılmışdır. "Daş"da daş dövründən ibtidai insanın düşmənə atdığı silah - daş çağdaş dövrə qədər faciələr doğura-doğura atom silahına qədər gəlib çıxmışdır.

V. Səmədoğlunun "O əyri xətt" (1965) şeirində üfüq metaforası dünyanı nizamlayan ("Deyirlər, /yer üzü/orda qatlanır, /bir də/xəyal, arzu/ordan atlanır") sərhəddir, insan həyatının və taleyinin mayakına dönmüşdür, hər şey ona nisbətdə ("Azadlığı görür kimsə /əyri üfüqdə, /kimi məhəbbəti/ ...soyuducuda bir kilo əti.../ Bəzən/azadlıq axtarılan üfüqdə/qarı paltar yuyur") ölçülür-biçilir. Şairin "Sabahdan axşamacan gözüm yolda" (1963) şeirində lirik qəhrəmanının gözü yolda olsa da, heç kimi, heç nəyi gözləmir, "Nə daş qaldırdım" (1971) şeirində də insan durğun vəziyyətdədir, heç nə etmir və etməyə can atmır, sadəcə, "Dünyaya baxmağa gəldim..." qənaətindədir. A. Abdullazadənin "Maşın, zaman, insan" (1968) şeirində adi bir maşın səsi lirik qəhrəmanı düşüncələrə daldırır: uşaq vaxtları bu maşın səsi onlara xoşbəxtlik (*Təsəvvürümdə yalnız /kəndimizdən ibarət olan dünyaya /Sevinc gətirərdi maşın*) bəxş etmiş, yeni arzular, əməllər, aləmlər dalınca maşın sürətilə uçandan sonra ömür yarı olanda isə artıq bu səsdən yorulmuşlar. Çünki insanlar da maşınlaşmışdır *(Çalırlar bütöv bir insan ömründə eyni paslı simi, /Birsəsli motorlar kimi*) və adam belə "maşınlar dünyas"ından – insan

cəmiyyətindən qaçmaq istəyir. Şeirdən çıxan nəticə budur ki, insan həmişə sürət istəyir, lakin bu sürət təkcə sevinc yox, həm də kədər gətirir.

F. Qocanın "Bu gün xoşbəxtəm" (1962) şeirində lirik qəhrəman adi bir qızın gülüşündən xoşbəxt ola bilir, qəlbində izaholunmaz sevinc fırtınası baş qaldırır (*Bu boyda sevinc olmaz/yanasıyam, yanası.../Səbəbi heç nədir, - /bir qız gülüb üzümə. /Qəribə insanlarıq)* və özü də bu işə mat qalır, "Adi insan"da öz avtoportretini cızaraq ümumiləşdirmə aparır, adi insan ömrü yaşaması ilə fəxr edir: *Bir içimlik su deyiləm içiləm, /bir aşırım yol deyiləm, /birnəfəsə keçiləm... /Adi insan olmaq özü /böyüklükdür, qardaşım. /Bu adı daşımaq özü /bir insan ömrü üçün /böyük yükdür, qardaşım* [9, s. 171].

Adi bir mövzuda yazılmış - heykəltəraşın daşdan heykəl yonması prosesinin təsvir edildiyi Əli Kərimin "Heykəl və insan" şeirində insanın sənətdə, sənətin insanda yaranması *(Qopardıqca heykəlin /üzündən qəpə-qəlpə /artıq ifadələri, /kobudluğu, /lazımsız kədəri; /Bıçağının ucuyla/heykəlin üzünə/məğrurluq, /əzəmət / Həkk elədikcə /zərrə-zərrə /Dəyişirdi /öz üzü də, /Öz gözü də*) sənətkarcasına göstərilmişdir. "Mənim həyatım" şeirində (1969) *"Adi bir insanam mən. /Adidən də adiyəm. /Bir əl boyda kağıza sığmaz amma bu aləm"* - deyən Əli Kərim öz ömür yolunu adiliyin fonunda təqdim etmiş, sonda da *"Deyirəm ki, ürəkdən: /Adi bir insanam mən!"* hökmü ilə tamamlamışdır. Rəsmi tərcümeyi-hala, yəni doğulduğun məkan, təhsil aldığın məktəb, institut, valideynlərinin kimliyi və s. barədə məlumatlara *"Bəs onda harda qaldı çəmənlərdə bir qoşun /O yüyürən, o duran uşaqların baharı?"* şəklində etirazı da, fikrimizcə, bu tendesiya ilə bağlı olmuşdur: *Qanadını bilmədən sındırdığım bir quşun /Ürəyimdə ney tutan xəfif sızıltıları?/Hanı yanaqlarının yaşını silib asta/Bənövşəyə, laləyə dərdli sirdaş olduğum?/Dizəcən ot içində, ya da bir budaq üstdə, /Gah tək qalan bir söyüd, gah da/bir daş olduğum?* [10, s.34].

Şairin bütövlükdə bu kontekstdən doğulmuş "Fraqmentlər"i (1964) də sadə boyalı poetik avtobioqrafiya olsa da *(Otuzdan çox yaşamışam... /Arabada, təyyarədə / Gah qum üstdə. /Gah dənizdə... sevgi toranında, / mühazirə salonunda,/ sevgilimlə bir-birimizə deyəcəyimiz iki söz arasında*), mətndə insan-zaman-məkan üçbucağının ümumiləşmiş bədii-fəlsəfi izahı əsasdır. Ə. Kərimdən iki il öncə F. Qocanın "Evim avtobuslar" (1962) mətni *(Evim-avtobuslar, vaqonlar, təyyarələr. /Kəndlər, şəhərlər, səyyarələr -/ dayanacağım. / Milyon kilometrlərlə ömür yaşamışam. /Kim bilir, /harda dayanacağam*) bu konteksə həm məzmun, həm də forma baxımından giriş kimi görünür. F. Sadığın "Cığır" şeirində lirik qəhrəmanın "Mən ot basmış bir cığıram, insan üçün darıxıram" misrasını həm də şairin poeziyasının baş leytmotivi kimi müəyyənləşdirmək mümkündür. "Mən adicə insanam" (1962) şeirində kainatla müqayisədə zərrədən, zamanla müqayisədə saniyədən də kiçik görünən insan adi olmayan idraka sahib olduğu üçün yerin də, göyün də hakimidir: *Mən adicə insanam, /Ömrüm yer tarixində görünməz saniyənin/Mində biri qədərdir.../Mən insanam, insanam, adi insan! /Kainata baxılsa,/Ən kiçicik zərrənin mində biri kimiyəm* [11, s.65]. Azərbaycan poeziyasında yeni insan konsepsiyasının bu istiqamətini dərindən duyan Xalq şairi B. Vahabzadə diqqəti adilik məsələsinə yönəldərək yazmışdır ki, F. Sadığın poeziyasında öz idrakının gücü ilə kainatın

əlifbasını oxumaq istəyən, sirlərini öyrənmək istəyən böyük yox, adi insanın sonsuz qüdrəti tərənnüm olunur. [12, s. 3-4]

**Nəticə**. Beləliklə, demək olar ki, R. Rza modernist-eksperimental ədəbi məktəbinin (Ə. Kərim, F. Qoca, F. Sadıq, İ. İsmayılzadə, Ə. Salahzadə, V. Səmədoğlu, Ç. Əlioğlu və başqaları) poeziya məramnaməsini əks etdirən və keyfiyyət dəyişikliyindən xəbər verən bu tip bədii mətnlər yeni düşüncə tərzi və yeni fikir axarları ilə bağlı idi. Poeziyada bu istiqamət – sosrealizm yaradıcılıq metodunun dominant olduğu dövrdə adiliyin, "kiçik adam"ın sadə həyat həqiqətlərinin bədii-fəlsəfi tərənnümü 1960-70-ci illər Azərbaycan poetik fikirində yeni insan konsepsiyasının yaranmasına səbəb olmuşdur. Adi, sadə görünən həyat hadisələri və həqiqətlərinin zahirən görünməyən tərəflərinin təsvir-tərənnümünün aparıcı motiv olması C. Məmmədquluzadə və mollanəsrəddinçilik təlimindən qaynaqlanmış, sosrealizmə müxalif mövqe kimi meydana çıxmışdır. Əmək, istehsalat qəhrəmanları yox, adi insanlar və onların taleyi bədii mətnin mərkəzinə gətirilməklə onun bədii-fəlsəfi dərki Rəsul Rza ədəbi məktəbinin əsas ideya-məzmun xəttinə çevrilmişdir.

### Ədəbiyyat


1. Dadaşzadə M. A., (1980), Sənətkar qocalmır, Bakı, Yazıçı, 368 s.
2. Rza R. İ., (2005), Seçilmiş əsərləri, 5 cilddə, 1-ci cild, Bakı, Öndər, 320 s.
3. Abdullazadə A. Ə., (1991), Seçilmiş əsərləri, Bakı, Azərnəşr, 336 s.
4. Axundov A. A., (1991), Dərin mənalar poeziyası / Abdullazadə A. Ə. Seçilmiş əsərləri, Bakı, Azərnəşr, s. 3-8.
5. Sadıq F. A., (1991), Seçilmiş əsərləri, Bakı, Azərnəşr, 384 s.
6. Yusifli V. Ə. (2009), Poeziyanın yolları və illəri, Bakı, Mütərcim, 404 s.
7. Dadaşzadə M. A., (1967), Seçilmiş əsərləri, 3 cilddə, 1-ci cild, Bakı, Azər. SSR Elmlər Akademiyası Nəşriyyatı, 620 s.
8. Əliyev K. İ., (2013), Ədəbiyyat tarixinə bir baxış, Bakı, Elm və təhsil, 302 s.
9. Qocayev F. G., (2004), Seçilmiş əsərləri, Bakı, Şərq-Qərb, 248 s.
10. Kərim Ə. P., (2004), Seçilmiş əsərləri, Bakı, Lider nəşriyyat, 336 s.
11. Sadıq F. A., (1974), İşığın yaşı, Bakı, Gənclik, 200 s.
12. Vahabzadə B. M., (1963), Yola çıxan cığır / Sadıq F., Cığır, Bakı, Azərnəşr, s. 3-4.